# Türkiyə mətbuatı Azərbaycanı “ağır günün dostu” adlandırdı

## Prezident İlham Əliyevin səfəri türk KİV-də geniş işıqlandırılıb

Azərbaycan dar günün də dostu olduğunu, ən yaxın müttəfiqinin dərdini hər zaman bölüşdüyünü, eyni zamanda qardaş Türkiyəni heç zaman yalnız qoymayacağını bir daha nümayiş etdirdi. Başqa sözlə, strateji tərəfdaşlığa, səmimi dostluq və yüksək səviyyəli münasibətlərə söykənən Azərbaycan-Türkiyə əlaqələrinin sarsılmaz olduğuna dünya növbəti dəfə şahidlik etdi.

Prezident İlham Əliyevin Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasında iştirak etmək üçün qardaş ölkəyə səfəri həm də ölkələrimiz arasında sarsılmaz özüllər üzərində bərqərar olan münasibətlərə xələl gətirmək istəyənlərə sərt xəbərdarlıq oldu.

Xatırladaq ki, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası ötən ay Bakıda keçirilməli idi. Amma fevralın 17-də Ankarada törədilən dəhşətli terror aktı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iclasda iştirak etmək üçün Azərbaycana səfər etməsinə imkan vermədi. Daha sonra Strateji Əməkdaşlıq Şurasının beşinci iclası martın 15-də Bakıda keçiriləcəyi məlum oldu. Lakin martın 13-də Ankarada yenə dəhşətli terror aktının törədilməsi Türkiyə dövlət başçısının Azərbaycana səfərinə maneçilik törətdi.

Belə bir vaxtda Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasını keçirmək üçün Azərbaycan böyük bir addım atdı. İclasın məkanı dəyişdirildi, Prezident İlham Əliyev Ankaraya işgüzar səfərə getdi. Sözügedən iclas ən yüksək səviyyədə baş tutmaqla yanaşı, Azərbaycan və Türkiyə münasibətlərində həm də yeni bir səhifə açdı.

Prezident İlham Əliyev Türkiyədə dəhşətli terror aktı ilə bağlı demişdir: *“Bu dəhşətli terror aktını qətiyyətlə pisləyirik, qınayırıq və bir daha deyirik ki, biz bu gün türk xalqının yanındayıq. Bizim birliyimiz əbədidir, sarsılmazdır. Yaxşı günlərdə də, ağır günlərdə də biz daim bir-birimizin yanındayıq. Biz Azərbaycanda tam əminik ki, Türkiyə xalqına və dövlətinə qarşı törədilmiş terror aktlarının heç bir nəticəsi olmayacaq. Bu, Türkiyə dövlətini sarsıda, türk xalqının iradəsinə təsir edə və Türkiyəni haqq yolundan döndərə bilməz”.*

Türkiyədə Azərbaycanın atdığı addımlar kifayət qədər yüksək qiymətləndirilir. Məsələn, Türkiyə Böyük Millət Məclisinin Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Necdet Ünüvar dedi ki, Azərbaycan Türkiyəni ağır günlərində tək qoymadı və bu da iki qardaş ölkənin münasibətlərində vacib göstəricidir. Azərbaycan Prezidentinin Ankaraya səfəri Azərbaycan-Türkiyə münasibətlərinin necə inkişaf etdiyinin daha bir göstəricisi oldu. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri iki ölkə arasında münasibətlərin inkişafında daha bir vacib addım oldu.




Türkiyə Kültür Universiteti beynəlxalq əlaqələr kafedrasının müəllimi Mənsur Akgün deyir ki, Türkiyənin sıxıntılı günlərində Azərbaycan Prezidenti çox önəmli addım ataraq, Ankaraya səfər edib: “Bununla, Türkiyənin yanında olduğunu dünyaya nümayiş etdirdi. Türkiyə çox çətin bir dönəmdən keçir, terror hadisələri səbəbindən Prezident Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri iki dəfə təxirə salınıb. Bu məqamda Prezident İlham Əliyev qətiyyət nümayiş etdirdi. Onun bu addımını Türkiyə heç vaxt unutmayacaq”.

Azərbaycan Prezidentinin Ankaraya işgüzar səfəri Türkiyənin kütləvi informasiya vasitələri tərəfindən də geniş işıqlandırılır. Anadolu agentliyi, “Sabah” və “Milliyet” qəzetləri, NTV, “TRT Haber”, “A Haber”, “Fox TV”, “Kanal A” və digər media orqanları bu səfərdən geniş bəhs edib. Məlumatlarda ölkələrimizin bir-birini hər zaman dəstəklədiyi qeyd olunub. Azərbaycan Prezidentinin Türkiyəyə səfər etmək barədə qərar qəbul etməsi, imzalanan sənədlərin əhəmiyyəti, dövlət başçılarının mətbuata bəyanatda səsləndirdikləri fikirlər qardaş ölkənin mediası tərəfindən geniş şərh edilib.

“Prezident İlham Əliyev tarixi Zirvə üçün Türkiyəyə gəldi”, “Türkiyəyə böyük dəstək”, “Prezident İlham Əliyevdən Türkiyəyə böyük jest”, “Ağır günün dostu”, “Qardaş dəstəyi” kimi sərlövhələrlə yayılan məlumatlar qəzetlərin və xəbər portallarının əsas xəbərləri sırasında yer alıb. Bildirilib ki, Azərbaycan-Türkiyə qardaşlığı nümunəvidir və sülhə, inkişafa xidmət edir.

Bütün bunlar bir daha göstərir ki, eyni dildə danışan, bir dinə etiqad edən, bir soykökündən yaranan Azərbaycan və Türkiyə yenə zamanın sınağından uğurla çıxır. Bu iki qardaş ölkənin arasına nifaq toxumu səpmək istəyənlər daim uğursuzluğa düçar olub. Hər yeni sınaq ölkələrimiz, xalqlarımız arasında qardaşlıq bağlarını daha da möhkəmləndirir. Dövlətlərarası münasibətlərin daim yüksək səviyyədə saxlanması, milli maraqları əhatə edən məsələlərdə tərəflərin bir-birini müdafiə etməsi Azərbaycan və Türkiyə rəhbərliyinin real şəraitdə həyata keçirdikləri uğurlu siyasətin məntiqi nəticəsidir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***